Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 28.10.2022 -ci il tarixli 22020055974 nömrəli əmri ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı**

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra- Məcəllə) 196, 198.2, 198.3, 204, 205-1.2, 441-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə - əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavinləri, Nazirliyin Aparatının Əmək siyasəti şöbəsinin müdiri, şöbə müdirinin müavini, sektor müdirləri, baş məsləhətçiləri, aparıcı məsləhətçiləri, məsləhətçiləri, Hüquq şöbəsinin müdiri, şöbə müdirinin müavini, sektor müdirləri, baş məsləhətçiləri, aparıcı məsləhətçiləri, məsləhətçiləri, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi, onun müavinləri, Dövlət Əmək Müfəttişliyi Xidmətinin Əmək qanunvericiliyinə riayət olunmasına dövlət nəzarəti, Risklərin idarə edilməsi və elektron audit, Əmək qanunvericiliyinin pozulmasına nəzarət və yoxlamalar, Əməyin mühafizəsinə nəzarət, Daxili nəzarət, Hüquq şöbələrinin müdirləri, Dövlət Əmək Müfəttişliyi Xidmətinin Mərkəzi Laboratoriyasının müdiri, Dövlət Əmək Müfəttişliyi Xidmətinin Gəncə regional laboratoriyasının müdiri, Bakı şəhər İdarəsinin rəisi və onun müavinləri, Dövlət Əmək Müfəttişliyi Xidmətinin regional şöbələrinin rəisləri, onların müavinləri, Xidmətin Aparatının və yerli orqanlarının baş əmək müfəttişləri və əmək müfəttişləri.

2. Məcəllənin 158.3 və 183-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından - əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavinləri, Nazirliyin Aparatının Sosial təminat siyasəti şöbəsinin müdiri, onların müavini, sektor müdirləri, baş məsləhətçiləri, aparıcı məsləhətçiləri, məsləhətçiləri.

3. Məcəllənin 197.1 və 197.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından - əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavinləri, Nazirliyin Aparatının Sosial təminat siyasəti şöbəsinin müdiri, onların müavini, sektor müdirləri, baş məsləhətçiləri, aparıcı məsləhətçiləri, məsləhətçiləri, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri, onun müavinləri, Aparatın departament müdiri, müdir müavini, şöbə müdiri, baş mütəxəssisləri, böyük mütəxəssisləri, aparıcı mütəxəssisləri, filiallarının müdirləri, onların müavinləri.

4. Məcəllənin 477-2.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından - əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavinləri, Nazirliyin Aparatının Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri, onun

müavini, sektor müdirləri, baş məsləhətçiləri, aparıcı məsləhətçiləri, məsləhətçiləri, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri, onun müavinləri, Fondun Daxili nəzarət departamentinin müdiri, departament müdirinin müavini, departamentin şöbə müdiri, departamentin baş mütəxəssisi, böyük mütəxəssisi, aparıcı mütəxəssisi və mütəxəssisi

5. Məcəllənin 527, 530 və 532-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə - əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavinləri, Nazirliyin Aparatının Daxili nəzarət və audit şöbəsinin müdiri, onun müavini.

6. Məcəllənin 602.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə - əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavinləri, Nazirliyin Aparatının Əmək siyasəti şöbəsinin müdiri, şöbə müdirinin müavini, sektor müdirləri, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi, onun müavinləri, Dövlət Əmək Müfəttişliyi Xidmətinin şöbə müdirləri, Dövlət Əmək Müfəttişliyi Xidmətinin Mərkəzi Laboratoriyasının müdiri, Dövlət Əmək Müfəttişliyi Xidmətinin Gəncə regional laboratoriyasının müdiri, Dövlət Əmək Müfəttişliyi Xidmətinin yerli orqanlarının rəisləri, onların müavinləri, Xidmətin Aparatının və yerli orqanlarının baş əmək müfəttişləri və əmək müfəttişləri.